

**İsmayıl Qədir oğlu Hüseynov – 65 il!**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Geofizika və Geologiya İdarəsinin əməyin mühafizəsi üzrə rəis müavini Hüseynov İsmayıl Qədir oğlunun 2021-ci il avqust ayının 27-də 65 yaşı tamam olur.

İ.Q. Hüseynov 1956-cı ildə neftçi ailəsində anadan olub. Əmək fəaliyyətinə 1973-cü ildən "Dənizneftqazlayihə" Dövlət Elmi Tədqiqat və Layihə İnstitutunda laborant vəzifəsindən başlamışdır. 1974-cü ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft-mexanika fakültəsinə daxil olmuşdur. 1982-ci ildə təhsilini bitirib, müxtəlif illərdə "Dənizneftqazlayihə" DETLİ-də mühəndis, böyük mühəndis, elmi işçi və böyük elmi işçi vəzifələrində çalışmışdır.

1985-ci ildə İ.Q. Hüseynov Leninqrad (indiki Sankt-Peterburq) İnşaat Mühəndisləri İnstitutunun "İnşaat mexanikası" ixtisası üzrə aspiranturanın qiyabi bölməsinə qəbul olunmuş və 1989-cu ildə təhsilini müvəffəqiyyətlə başa vurmuşdur. "Dəniz stasionar platformalarının dayaq bloklarının özülünün qrunt çöküntülərinə nəzərən dəyişməsi" mövzusunda dissertasiya müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. 1989–1992-ci illər ərzində o, "Dənizneftqazlayihə" DETLİ-də və Dəniz qurğularının tədqiqatı laboratoriyasının müdiri vəzifəsində işləmişdir. İ.Q. Hüseynov Azərbaycanda Günəşli, Neft Daşları və digər dəniz yataqlarının mənimsənilməsini həyata keçirmək məqsədilə dəniz stasionar platformalar, estakadalar və yan meydançaların dayanıqlığının tədqiqatına istiqamətləndirilmiş məsələlərin həlli ilə məşğul olmuşdur. Həmçinin dəniz stasionar platforma özüllərinin real və irimiqyaslı konstruksiyalarının təkmilləşdirilməsi üzrə eksperimentlərin aparılması, elmi–prartiki və sənaye məsələlərin həllinə rəhbərlik etməyə ona illər ərzində əldə edilmiş biliklər və yığılmış təcrübə kömək edir. Hazırda İ.Q. Hüseynov ilk dəfə dənizdə stasionar platforma özüllərinin quraşdırılmasında iştirak edən azsaylı mütəxəssislərdən biridir.

1992-ci ildən SOCAR-ın Neft və Qazçıxarma üzrə Baş idarəsinin şöbə rəisi, 1994-cü ildən "Quruda Neft və Qazçıxarma" İstehsalat Birliyinin, 2003-cü ildən "Azneft" İstehsalat Birliyinin baş mexaniki vəzifələrində çalışmışdır.

Bu müddətdə İsmayıl Hüseynov "Urenqoy" qaz kəmərinin sualtı hissəsinin tikintisi zamanı sınaq işlərinə, Günəşli yatağında dərin dəniz özüllərinin tikintisindən sonra nəqli, quraşdırılma və istismarının sınaq işlərinə, "Quruda Neft və Qazçıxarma" İdarələrinin ərazilərində quraşdırılmış irihəcmli kompressor stansiyalarının, eləcə də "Oksigen" zavodunun rekonstruksiyası zamanı irihəcmli oksigen hasil edən qurğunun istismara verilməsinə və s. mühüm işlərə bacarıqla rəhbərlik edərək yüksək nəticələrə nail olmuşdur.

İ.Q. Hüseynov 2004-cü ildən Geofizika vo Geologiya İdarəsində müxtəlif vəzifələrdə işləmiş, 2011-ci ildən isə idarənin əməyin mühafizəsi üzrə rəis müavini vəzifəsində çalışır. Onun rəhbərliyi ilə quru və dəniz şəraitində neft-qaz yataqlarında aparılan geoloji və geofiziki tədqiqatlar beynəlxalq standartlara və SƏTƏM qaydalarına uyğun şəkildə təşkil olunmaqla müsbət nəticələr əldə edilmişdir.

İsmayıl müəllimin apardığı elmi tədqiqatların nəticələri 50-dən artıq elmi işdə, o cümlədən, Azərbaycan və digər ölkələrdə dərc olunmuş 40-dan artıq məqalə və bir monoqrafiyada öz əksini tapmışdır. O, bir neçə ixtira və səmərələşdirici təkliflərin müəllifi və həmmüəllifidir. "Dəniz stasionar platformalarının möhkəmliyi və dayanıqlığı" mövzusunda doktorluq dissertasiya işi üzərində işləyir. İsmayıl Hüseynov dəfələrlə Bakı, Moskva, Sankt-Peterburq, Nyu-York, Berlin, Varşava, İstanbul, Dubay, Riqa, Yalta və dünyanın digər şəhərlərində beynəlxalq konfranslarda məruzələrlə çıxış etmiş, işgüzar səfərlər və beynəlxalq görüşlərdə mütəxəssis kimi iştirak etmişdir.

İ.Q. Hüseynov 2005-ci ildə Respublikanın neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə SOCAR-ın Fəxri fərmanı ilə təltif olunmuşdur.

7 noyabr 2017-ci il tarixində 2 milyardıncı ton Azərbaycan neftinin hasil olunması münasibətilə neft və qaz sənayesinin inkişafında xidmətlərinə görə İsmayıl Qədir oğlu Hüseynova Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar mühəndis" fəxri adı verilmiş, 2021-ci ildə isə "Fəxri Neftçi" döş nişanı ilə təltif olunmuşdur. İsmayıl müəllimin öz sözü ilə, bu mükafat onun üçün xüsusi məna daşıyır və ikiqat dəyərlidir, çünki neftçilər nəslinin varisliyini sübut edir. 1971-ci il martın 28-də Azərbaycanda 1 milyard ton neftin hasil olunması münasibətilə o zaman neft sənayesində çalışan atası, Hüseynov Qədir Abdulla oğlu da "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

**Hörmətli yubilyara möhkəm cansağlığı, uzun ömür və işlərində müvəffəqiyyətlər arzulayırıq!**